*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (1) 2023*
https://doi.org/ 10.46868/atdd.2023.




*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received :10.07.2023*
*Kabul tarihi |Accepted: 20.07.2023*
*Yayın tarihi |Published : 25.08.2023*



**İsa Həbibbəyli**

https://orcid.org.0000-0002-9793-1949
*President of the Azerbaijan National Academy of Sciences, Academician, Azerbaijan, isa.habibbeyli@science.az*

***Atıf Künyesi | Citation Info***
Həbibbəyli, İ. (2023). Heydər Əliyevin Müstəqil Dövlətçilik İdealları və Müasir Dövr. *Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 1-9.

# Heydər Əliyevin Müstəqil Dövlətçilik İdealları və Müasir Dövr

***Xülasə***

*Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyev XX əsrin ikinci yarısından etibarən mənsub olduğu xalqın tarixi müqəddəratında həlledici rol oynamışdır. O, hələ sovet hakimiyyəti illərində Azərbaycan xalqının milli mənafelərinin qorunub saxlanılması üçün böyük addımlar atmışdır. Heydər Əliyev sovet dövründə Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldıran görkəmli dövlət xadimidir. Məhz onun xidmətləri sayəsində Azərbaycan keçmiş Sovetlər İttifaqında ən inkişaf etmiş ölkələrdən birinə çevrilmişdir. Azərbaycanın dövlət müstəqilliyinin qurulması və*

*möhkəmləndirilməsi də Heydər Əliyevin adı və mübarizəsi ilə üzvi surətdə bağlıdır. Bütün bunlara görə Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideri kimi böyük tarixi ad qazanmışdır. "Heydər Əliyevin Müstəqil Dövlətçilik İdeallari və Müasir dövr" məqaləsi Heydər Əliyevin dünyagörüşünü, qırx ildən artıq böyük bir dövrdə həyata keçirdiyi milli dövlətçilik missiyasını, müstəqil respublika ideyasını, xalqının ana dili, təhsili, elmi, ədəbiyyatı, mədəniyyəti üçün cəsarətli və cəfakeş xidmətlərini, ərazi bütövlüyümüz naminə apardığı mübarizəsini, eyni zamanda keşməkeşli ömür yolunu hərtərəfli surətdə və yüksək ehtiramla dəyərləndirir, başqa cür desək, həqiqi alim təfəkkürü ilə tarixə həkk edir. Eyni zamanda "Heydər Əliyevin Müstəqil Dövlətçilik İdeallari və Müasir dövr" məqaləsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik təliminin əsas mahiyyəti və hədəfləri təhlil edilir, görkəmli dövlət xadiminin milli istiqlal ideyasının müasir dövrdə əhəmiyyəti elmi-obyektivliklə qiymətləndirilir.*

***Açar sözlər:*** *Azərbaycan, Heydər Əliyev, Müstəqil, Dövlət, Müasir dövr*

## Heydar Aliyev's Ideals of independent Statehood and the Modern Era

***Abstract***

*Heydar Aliyev, the eldest son of the Azerbaijani people, an outstanding statesman, has played a decisive role in the historical destiny of his nation since the second half of the 20th century. He took great steps to protect the national interests of the Azerbaijani people even during the years of Soviet rule. Heydar Aliyev is an outstanding statesman who raised the Azerbaijani language to the level of the state language during the Soviet era. Thanks to his services, Azerbaijan became one of the most developed countries in the former Soviet Union. The establishment and strengthening of the state independence of Azerbaijan is organically connected with the name and struggle of Heydar Aliyev. Due to all this, Heydar Aliyev has gained a great historical name as the national leader of the Azerbaijani people. The article "Ideals of Independent Statehood of Heydar Aliyev and the Modern Era" describes the worldview of Heydar Aliyev, the mission of national statehood that he carried out in a long period of more than forty years, the idea of an independent republic, his brave and brave services for the mother tongue, education, science, literature, and culture of his people, our territorial integrity. he values his struggle for the sake of, at the same time, his tumultuous life path comprehensively and with high respect, in other words, he engraves in history with the thinking of a true scientist. At the same time, in the article "Heydar Aliyev's Ideals of Independent Statehood and the Modern Era", the main essence and goals of the education of statesmanship of the national leader of the Azerbaijani people, Heydar Aliyev, are presented. is analyzed, the importance of the national historical idea of a prominent statesman in modern times is assessed with scientific objectivity. In the article "Heydar Aliyev's Ideals of Independent Statehood and the Modern Era", the main essence and goals of the education of statesmanship of Heydar Aliyev, the national leader of the Azerbaijani*

*people, are analyzed. is done, the importance of the nationalistic idea of a prominent statesman in modern times is assessed with scientific objectivity.*

***Keywords:*** *Azerbaijan, Heydar Aliyev, Independent, State, Modern era*

## Giriş

Məlum olduğu kimi dünya şöhrəti qazanmış görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan reallığının meydana çıxardığı qüdrətli liderdir. O, XX əsrdə Azərbaycan Xalq Cümhuriyyətinin acı məğlubiyyətinin ibrətamiz dərslərini yaşamış, qanlı 37-ci ilin repressiyalarının ağır imtahanlarını vermiş xalqı çətinliklərdən çıxararaq irəliyə doğru aparmağı bacaran liderə olan ehtiyac zəminində Azərbaycan xalqının öz içindən doğan fenomenal tarixi şəxsiyyətdir. Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyev ölkəmizin çoxəsrlik dövlətçilik ənənələrinin əsasında yetişib formalaşmış görkəmli dövlət xadimidir. Bu dahi şəxsiyyətin simasında Azərbaycan dövlətçilik tarixində mühüm yer tutan Atabəylər dövlətinin məharəti, Səfəvilər imperiyasının qüdrəti, Şirvanşahlar hakimiyyətinin siyasəti cəmlənmişdir. Azərbaycan xanlıqlarının nümayiş etdirdikləri milli qürur da Ulu Öndər Heydər Əliyevin şəxsiyyətində qabarıq surətdə özünü göstərən faktorlardandır. Heydər Əliyev Çar Rusiyasının daxili mahiyyətinə lazımi şəkildə bələd olduğu üçün rəhbərlik etdiyi respublikanın daxili imkanlar əsasında inkişaf etdirilməsi üçün nə mümkündürsə, hamısını etmişdir. Azərbaycan tarixinə müstəqillik kimi parlaq və tarixi bir səhifə yazmış Xalq Cümhuriyyəti rəhbərlərinin Azərbaycan idealı Heydər Əliyevin dövlətçilik təliminin əsas mahiyyətini və hədəflərini təşkil etmişdir. SSRİ adlandırılan qırmızı terror bolşevik dövlətinin tərkibində olan digər xalqları əridib sıradan çıxarmaq siyasətinin qarşısında milli-mənəvi dəyərlərin dövlət siyasəti səviyyəsində yaşadılması və möhkəmləndirilməsi də möhtəşəm Heydər Əliyev obrazının ana xətlərini müəyyən edir. Məhz bu cəhəti – yəni mənsub olduğu xalqın tarixi keçmişini unutdurmaq və soy-kökündən ayırmaqla onun milli-mənəvi varlığını yox etmək siyasətinin görünən və görünməyən bütün tərəflərini dərindən dərk etməsi Ulu Öndər Heydər Əliyevin dövlətçilik təliminə milli istiqlal ideyasını gətirmişdir. O, hələ sovet hakimiyyəti illərində kommunist imperiyasının daxildən çökməkdə olduğunu hamıdan daha çox hiss etdiyi üçün xalqını gələcək dövlət müstəqilliyinə hazırlamaq missiyasını qabaqcadan böyük bacarıqla həyata keçirmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin çoxillik ictimai-siyasi fəaliyyətini bir neçə mühüm epoxaya bölmək olar: Sovet rejiminin inkişafda olan dövrü (1969-1986), mürəkkəb keçid prosesləri (1987-1990), Azərbaycanın dövlət müstəqilliyi mərhələsi (1991-2003). Bu cür inkişafda olan 35 illik bir epoxanın aparıcı şəxsiyyətlərindən, əsas simalarından olan Heydər Əliyevin böyük siyasətdə keçdiyi çətin və şərəfli yol, ən çətin

məqamlarda onun tutduğu obyektiv və qəti mövqe, atdığı düşünülmüş addımlar, əldə etdiyi ciddi və mühüm nəticələr əslində çox mənalı və ibrətamiz məktəbdir. Bu, beynəlxalq siyasi aləmdə və Azərbaycanda özünəməxsus xüsusi yeri və əhəmiyyəti olan, tarixə düşən, hər yeni tarixi mərhələ üçün aktual və müasir səslənən, həmişəyaşarlıq qazanmış Heydər Əliyev dövlətçilik məktəbi kimi özünü təsdiq etmişdir. Eyni zamanda, Heydər Əliyevin qiymətli siyasi irsi: məruzələri, nitqləri, çıxışları, imzaladığı tarixi qərarlar və sərəncamlar, hətta verdiyi tapşırıq və tövsiyələr küll halında həmin böyük dövlətçilik və siyasət məktəbinin möhtəşəm və mötəbər dərsliyidir. Beləliklə, görkəmli dövlət xadimi Heydər Əliyevin simasında böyük, əbədiyaşar müstəqil dövlətçilik siyasətinin nəzəriyyəsi və təcrübəsi vahid məcrada birləşir (Həbibbəyli, Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr, 2013, s. 22).

XX əsr sovet rəhbərlərinin əsas idealı mövcud sistemi qorumaqdan ibarət idi. Ulu Öndər Heydər Əliyev isə cəmiyyəti yeniləşdirməklə inkişaf etdirmək vəzifəsini həyata keçirmişdir. Qorbaçovsayağı kosmik dəyişmələrdən fərqli olaraq, Heydər Əliyevin mövcud sistem daxilində dəyişiklik uğrunda apardığı mübarizə nəticə etibarilə müstəqillik idealına xidmətə doğru yönəlmişdir. Bu mənada Heydər Əliyev təkcə Azərbaycanda deyil, keçmiş SSRİ miqyasında müstəqil dövlətçilik ideyasının banisidir. Azərbaycanda dövlət müstəqilliyi uğrunda mübarizə Heydər Əliyevin milli istiqlal konsepsiyasının işığında həyata keçirilmişdir. Bu uzaqgörən dahi şəxsiyyət Sovetlər İttifaqı dövründə formalaşdırdığı milli istiqlal idealını həm də qətiyyətlə ideyadan real həyata keçirmək vəzifəsini də gerçəkləşdirmişdir. Keçmiş sovet dövlətinin rəhbərləri arasında yeganə olaraq Heydər Əliyev həmin dövlətin hələ mövcud olduğu şəraitdə, 17 noyabr 1990-cı il tarixində çağırılmış Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında sovet bayrağını siyasi səhnədən çıxararaq, əvəzində öz ölkəsinin milli dövlətçilik rəmzi olan unutdurulmuş tarixi bayrağını Kommunist Partiyasının Regional Mərkəzinin iqamətgahı üzərində ucaltmağa nail olmuşdur ( Həbibbəyli, Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr, 2013, s. 76). Ulu Öndər Heydər Əliyev 1990-cı ildə sovet dövlətinin paytaxtı Moskva şəhərindəki Azərbaycanın daimi nümayəndəliyindən 20 yanvar faciəsinə görə SSRİ rəhbərlərini kəskin tənqid atəşinə tutan bəyanatlar səsləndirmişdir. Bu qətiyyətli addımı ilə Heydər Əliyev müttəfiq respublikalarda, o cümlədən Azərbaycanda milli hərəkat dalğasını genişləndirərək regiondan paytaxt səviyyəsinə çatdırmışdır. Ümummilli Lider Heydər Əliyev sovet hökumətinin hələ qüvvədə olduğu vaxtda, 19 iyul 1991-ci il tarixində SSRİ Nazirlər Soveti partiya təşkilatına Kommunist Partiyası sıralarından çıxmasını rəsmi şəkildə bəyan etməsi ilə həmin rejimin çökməsinə zərbə vuran yeganə dövlət xadimidir. SSRİ-nin hələ tarix səhnəsində fəaliyyətini davam etdirdiyi dövrdə onu açıq şəkildə ittiham etmək və hakim partiyanın sırala-

rını tərk etmək, dünyanın iki böyük dövlətindən birinin bayrağını taxtdan salmaq cəsarətini və uzaqgörənliyi nümayiş etdirmiş Ulu Öndər Heydər Əliyev bütün bu addımları ilə SSRİ-nin mövcudluğuna ağır zərbələr vurmuşdur. Bununla Heydər Əliyev təkcə Azərbaycanda deyil, SSRİ-nin tərkibinə daxil olan digər müttəfiq respublikalarda da milli istiqlal hərəkatına bir ordudan çox xidmət etmişdir. SSRİ kimi bir derjavanın dağılması üçün düşünülmüş cəsarətli addımlar atması ilə Heydər Əliyev ümumdünya tarixinin istiqamətinin dəyişdirilməsinə xidmət etmişdir. Bununla Heydər Əliyev dünya xəritəsinin yenidən çəkilməsinin mümkünlüyünü isbat etmişdir.

Müstəqil dövlət quruculuğu istiqamətində də böyük uğurla sınaqlardan çıxmış Heydər Əliyev təlimi mövcuddur. Müstəqil dövlətçiliyi süquta uğratmaq üçün ölkədə körükləndirilmiş vətəndaş müharibəsini qansız-qurbansız dayandırmağı bacarmaq və ölkədə yaşayan bütün xalqların siyasi həmrəyliyinə nail olmaq Heydər Əliyevin dövlətçilik təliminin əyani təzahürlərindən biridir. Ermənistan və onun havadarları ilə davam edən müharibəni dayandırmaq, atəşkəs rejiminə nail olmaq və müstəqil dövlətin ordusunu qurmaq da Ulu Öndər Heydər Əliyev siyasətinin ən mühüm nəticələri sırasındadır.

Ulu Öndər Heydər Əliyev məkrli xarici qüvvələrin dəstəyi ilə yeni qurulmuş müstəqil respublikada real dövlət çevrilişi cəhdlərinin qarşısını almağı bacarmış qüdrətli liderdir. Xarici güclərin təzyiqlərinə baxmayaraq, Azərbaycanın əsas sərvəti olan neft və qazın dünya bazarlarına çıxarılması məqsədilə beynəlxalq birlik tərəfindən imzalanmış "Əsrin müqaviləsi" Heydər Əliyevin möhtəşəm əsəridir. Müstəqil respublikalara çevrilmiş postsovet ölkələrində ilk olaraq torpaq islahatlarına başlamaq və onu qısa müddətdə axıra çatdırmaq da Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Respublikasında planlı sosialist təsərrüfatından azad bazar iqtisadiyyatına keçid proseslərinin həyata keçirilməsi və inkişaf etdirilməsi də Heydər Əliyevin müstəqil dövlətçilik istedadının real göstəricilərindəndir. Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin modelini qurmuş və möhkəm siyasi-ideoloji əsaslarını yaratmışdır. Azərbaycan Respublikasının dövlət ideologiyası olan Azərbaycançılıq təlimi Heydər Əliyev tərəfindən kəşf edilmişdir. Azərbaycan xalqı, Azərbaycan dili, Azərbaycançılıq ideologiyası kimi anlayışlar ölkəmizin müstəqillik tarixində siyasi sabitliyə və vətəndaş həmrəyliyinə nail olmaq üçün Heydər Əliyevin müəyyən etdiyi düsturlardır. Ulu Öndər Heydər Əliyev qeyri-adi yaddaşa, dəmir məntiqə, hərtərəfli biliklərə, geniş dünyagörüşə malik olan nadir dövlət xadimlərindən biridir. Ümummilli Lider Heydər Əliyev xalqına və ölkəsinə etibarlı dostlar və strateji müttəfiqlər qazandırmağın dəqiq formullarını kəşf etmiş dahi şəxsiyyətdir. Türkiyə Böyük Millət Məclisində

Mustafa Kamal Atatürk adına “Sülh” mükafatına layiq görülərkən tarixi nitqində “Bir millət – iki dövlət” ideyasını meydana qoymaqla ortaq tarixi köklərə malik olan Azərbaycanın və Türkiyənin münasibətlərini ortaq dəyərlərdən strateji müttəfiqlik səviyyəsinə qədər qaldırmağı bacarmışdır. Bu gün hərtərəfli şəkildə inkişaf etməkdə olan türk dövlətləri birliyi “Bir millət – iki dövlət” düsturunun böyük strateji imkanlara malik olduğunu nümayiş etdirir (Heydər Əliyev Atatürk haqqında, 2003). Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qüdrətli yaradıcısıdır. Müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əseridir.

Heydər Əliyev siyasi kursu bu böyük dühanın parlaq adını və çoxcəhətli fəaliyyətini, geniş dünyagörüşünü və mənalı irsini əhatə edən zəngin dövlətçilik təlimi, siyasi-ideoloji baxışlar sistemidir. Heydər Əliyev siyasi kursu - qlobal yanaşma ilə milli dəyərlərin vəhdətindən yoğrulmuş düşünülmüş yetkin təlimdir. Heydər Əliyev siyasi kursu - milli dövlətçilik təliminin strategiyasından, xalqın inkişaf dialektikasının taktikasından ibarətdir. O, böyük siyasətin uzaqvuran topu, ağır artilleriyası idi. Heydər Əliyev siyasi kursu - xalqı bir yumruq kimi birləşdirən, yaşadan, səfərbər edən və daha böyük gələcəyə aparan gerçəkçi siyasətin ifadəsidir. Nəhayət, Heydər Əliyev siyasi kursu - cəmiyyət həyatının, ümummilli inkişafın əbədiyyət ünvanlı lokomotividir (Həbibbəyli, Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr, 2013, s. 89).

Məlumdur ki, böyük sınaqlardan çıxmış Heydər Əliyev siyasi kursunun nüvəsini, cövhərini Azərbaycançılıq təlimi təşkil edir. Azərbaycançılıq çoxcəhətli istiqamətlərə malik olan Heydər Əliyev siyasi kursunun tac damarıdır. Müstəqil Azərbaycan isə universal zəkaya malik olan Heydər Əliyev dühasının şah əsəridir. Görkəmli dövlət xadimi Heydər Əliyev azərbaycançılıq siyasətini özünün dərin məzmunlu fəaliyyətinin bütün mərhələlərində əsas kimi götürmüş, həmin ümumilli ideyanın daha da möhkəmləndirilməsi işini həyatının mənasına, siyasətinin əsas hərəkətverici qüvvəsinə çevirmişdir. Məhz Heydər Əliyevin dolğun və ardıcıl siyasəti nəticəsində azərbaycançılıq ictimai-ədəbi mühitdə ümummilli hərəkat, siyasi müstəvidə isə dövlət ideologiyası mahiyyəti qazanmışdır. Bu elmi-məntiqi qənaətimiz ondan qaynaqlanır ki, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının tarixini, mədəniyyətini, ədəbiyyatını bütün fəlsəfəsi ilə dərindən bilmiş və milli istiqlal uğrunda apardığı məsuliyyətli mübarizələrdə ədəbi-tarixi irsdən və təcrübədən bacarıqla istifadə etmişdir.

Böyük siyasətdə ədəbiyyatdan yaradıcılıqla istifadə etməyin mükəmməl nümunəsini göstərən Heydər Əliyev həm də mənsub olduğu ölkənin milli maraqlara əsaslanan ədəbiyyat siyasətini də müəyyən etmişdir. Fikrimizcə, qüdrətli dövlət xadimi Heydər Əliyevin yarım

əsrə yaxın apardığı böyük siyasətin böyük ədəbiyyatını və elmini yaratmaq Azərbaycan bədii və elmi təfəkkürünün borcudur. Bu, həm də dərin siyasi və elmi-ədəbi düşüncənin möhtəşəm sintezindən yaranmış Heydər Əliyev zəkasından doğan qeyri-adi dövlətçilik modelinin nəsildən-nəslə çatdırılması baxımından da zəruridir.

Beləliklə, Heydər Əliyev Azərbaycanda və dünyada müstəqil dövlətçilik modelinin müəllifidir. Heydər Əliyevin müstəqil dövlətçilik idealları və təlimi bu gün də, gələcəkdə də yeni dövlət müstəqilliyi qazanmış xalqlar və ölkələr üçün mükəmməl bir məktəb mahiyyətindədir. Müasir dövrdə Heydər Əliyevin müstəqil dövlət quruculuğu strategiyası Azərbaycan Respublikasının bütün sahələrdə uğurlu və dinamik inkişafının möhkəm bünövrəsi kimi XXI əsrin dünya siyasi arenasında yüksək qiymətləndirilir.

Hazırda Azərbaycan Respublikasında Heydər Əliyevin müstəqil dövlətçilik təlimi, azərbaycançılıq ideologiyası dünyada dəyişən və inkişaf edən reallıqlarla, zənginləşən yeni proseslərlə birlikdə ölkəmizdə yaradıcı şəkildə ardıcıl olaraq həyata keçirilir. Beləliklə, möhkəm bünövrələr, böyük sütunlar üzərində yeni və möhtəşəm Azərbaycan qurulur.

Bəli! Heydər Əliyev elə nadir tarixi şəxsiyyətlərdəndir ki, həyatını bütünlüklə xalqına və ölkəsinə həsr etmişdir. Xalqın mənafeyini hər şeydən üstün tutmuş Ulu öndərin "Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"( Heydər Əliyev Atatürk haqqında (http://elibrary.bsu.az/books_460/N_195.pdf). -müdrik düşüncəsi atalar sözünə çevrilmişdir. Həmçinin, "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışır və çalışacağam"( Heydər Əliyev. Müdrik fikirlər (http://www.heydar-aliyev-foundation.org/az/content/index/85/). fikri görkəmli dövlət xadimi Heydər Əliyevin azərbaycançılıq təliminin dərinliyini və dönməzliyini, əbədiyaşarlığını bütün ruhu ilə ifadə edir. Seçilmiş sovet rəhbərlərindən yalnız Heydər Əliyev xalqının azadlığının və müstəqil dövlətinin qorunub saxlanılması, onun daha da möhkəmləndirilməsi naminə özünün layiqli siyasi varisini yetişdirib hazırlamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çoxcəhətli, məqsədyönlü və yorulmaz fəaliyyəti, dövlətçilik işinə çoxaspektli düşünülmüş yanaşmaları, analitik təfəkkürü, müdrik siyasəti, dərin düşüncəsi ilə müstəqil Azərbaycan dövlətçiliyinin yeni epoxası formalaşır.

Artıq hər kəsə yaxşı məlumdur ki, Ulu öndər Heydər Əliyevin dövlətçilik təliminə uyğun olaraq ümummilli mənafenin, dövlətçilik maraqlarının daim üstün tutulması və yaradıcılıqla inkişaf etdirilməsi İlham Əliyev siyasətinin təməl prinsipidir. Prezident İlham Əliyevin

siyasətində ən müxtəlif mövqelərdən, fərqli bucaqlardan ifadə olunan siyasi yanaşmaların hamısı Azərbaycançılıq fəlsəfəsində, Azərbaycanın inkişafı naminə aparılan qlobal işlərdə tamamlanır. Azərbaycançılıq bu böyük və müdrik siyasətin cövhərini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müstəqil Azərbaycanı inkişaf etməkdə olan ölkədən bütün istiqamətlər üzrə inkişaf etmiş dövlətlərin cərgəsinə doğru aparmaqla yeni tarixi epoxada öz erasını yaratmış qüdrətli liderdir. Cənab Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsində işğalçı Ermənistan üzərində qazandığı tarixi zəfər Azərbaycanın çoxəsrlik tarixinin möhtəşəm qəhrəmanlıq dastanıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dünyada BMT-dən sonra ən böyük siyasi təşkilat olan Qoşulmama Hərəkatına liderlik etməsi Ulu Öndər Heydər Əliyevin sovet hakimiyyəti illərində siyasi büro zirvəsini fəth etməsinin yeni tarixi şəraitdəki nümunəsidir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, ölkəmizin birinci xanımı Mehriban Əliyeva da özünün çoxcəhətli fəaliyyəti, Heydər Əliyev Fondunun dəstəyilə keçirilmiş tədbirlər vasitəsilə bu böyük idealın – Ümummilli Lider Heydər Əliyev yolunun ölkəmizdə daha da genişlənməsinə və möhkəmlənməsinə sanballı töhfələrini verməkdədir. Mənsub olduğu xalqın tarixində və taleyində davamlı inkişafa nail olması və ideyalarının davam etdirilərək yaşadılması Heydər Əliyevi Azərbaycan xalqının Ümummilli Lideri səviyyəsinə ucaltmışdır. Ümummilli liderlik Heydər Əliyevin Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinə gətirdiyi yeni zirvədir. Ümummilli liderlik dünya liderliyi miqyasında da fərqli və parlaq bir səhifədir. Ulu Öndər Heydər Əliyev dünya liderləri sırasında ümummilli liderlik miqyası nümayiş etdirən nadir tarixi şəxsiyyətlərdəndir.

Azərbaycan xalqı və müstəqil Azərbaycan dövləti Prezident cənab İlham Əliyevin elan etdiyi (Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 29 sentyabr 2022 https://president.az/az/articles/view/57413). "Heydər Əliyev İli"ni təntənəli surətdə bayram etməklə müstəqil dövlətçiliyin əbədiyyət qazanmasının şərəfini yaşayır. Görkəmli dövlət xadimi Heydər Əliyev əbədiyyət qazanmış Ümummilli Lider kimi müstəqil dövlətçilik idealları və dərsləri ilə həm xalqının qəlbində, həm də Azərbaycan Respublikasının inkişafının hər addımında yaşamaqda davam edir. Ulu Öndərin başladığı böyük iş dünya birliyinin yeni çağırışları əsasında ölkəmizin Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**Ədəbiyyat**

*Heydər Əliyev Müstəqilliyimiz əbədidir* (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar) (1993). (I. Cild). Azərnəşr.

*Heydər Əliyev Müstəqilliyimiz əbədidir* çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar. (1997). ( 2. Cild). Azərnəşr.

*Heydər Əliyev Müstəqilliyimiz əbədidir* çıxışlar, *nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar.* (1997). (3. Cild). Azərnəşr.

*Heydər Əliyev və Azərbaycan elmi: biblioqrafik göstərici* (2010).

*Heydər Əliyev Atatürk haqqında* http://elibrary.bsu.az/books_460/N_195.pdf.

*Heydər Əliyev. Müdrik fikirlər.*http://www.heydar-aliyev-foundation.org/az/content/index/85/

Həbibbəyli, İ. (2013). *Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr.* Əcəmi NPB.

Həbibbəyli, İ. (2002). *Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti*. Qeyrət.

Quliyeva, X. (2002). *Heydər Əliyev və mənavi-estetik dəyərlər*. Azərnəşr.

Quliyeva, X. (2019). *Heydər Əliyev Siyasəti: Milli Dövlət, Milli Lider, Vətəndaşlıq, Mənəviyyat.* Elm.

Əliyev, Q.(2003) *Heydər Əliyev və milli mentalitet fəlsəfəsi.*Qismət.

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1996. Bakıda Türk Yazıçılarının III qurultayında nitqi.* http://elibrary.bsu. az/yenii/ebookspdf/H.%C6%8Fliyev_8ci_kitab.pdf.

*Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 29 sentyabr 2022.* https://president.az/az/articles/view/57413.